**Azərbaycan Respublikası Vergilər Nazirliyinin**
**Tədris Mərkəzi**

**“Korrupsiya ilə əlaqədar hüquqpozmalar və məsuliyyət”**
**mövzusu üzrə**

# TƏLİM MATERİALI

**Dinləyicilər** müsabiqə yolu ilə vergi orqanlarına staj müddətinə işə qəbul edilən əməkdaşlar, orta və kiçik menecerlər (mütəxəssislər);
**Təhsilalma forması** əyani;
**Tədris müddəti** 2 saat;
**Müəllif** **Mirzəyev Anar Cəlilağa oğlu**, İqtisadiyyat və menecment kafedrasının baş müəllimi

**Tədrisin məqsədi -** Mövzunun tədrisinin məqsədi korrupsiya anlayışı, yaranması tarixi, genişlənməsi səbəbləri, onun subyektləri və təzahür formaları, o cümlədən onun nəzəri və praktiki məsələlərinin müəyyən edilməsi, dinləyicilərin bu məsələlər haqqında biliklərə yiyələnməsidir.

**Bakı-2018**

# Mövzunun mündəricatı

1. Korrupsiya anlayışı....................................................................................................3
2. Korrupsiya ümumbəşəri problem kimi.......................................................................4
3. Korrupsiya hüquqpozmaları.........................................................................................6
4. Korrupsiyaya qarşı marifləndirmə.............................................................................10
5. Korrupsiya ilə əlaqədar hüquqpozmalara görə məsuliyyət......................................11
5.1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatvermə............................12
5.2.Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin dövlət müdafiəsi.....................................................................................................................13
6. Nəzarət sualları...........................................................................................................14
7. Müstəqil öyrənmək üçün tapşırıqlar...........................................................................14
8. Ədəbiyyat.....................................................................................................................14

# I. Korrupsiya anlayışı

Korrupsiya vəzifəli şəxslər tərəfindən dövlət əmlakının oğurlanması, talanması və mənimsənilməsi, xidməti statusdan sui istifadə edərək şəxsi mənfəət (güzəşt, imtiyaz) əldə edilməsi, ictimai məsuliyyət və şəxsi tamah arasında maraqların konfliktidir. Korrupsiyanı

- Hüquqi cəhətdən tək bir qanunazid əməl kimi qiymətləndirmək olmaz;
- Daha çox sosial və kriminoloji aspektdən bir sintez kimi qəbul etmək lazımdır;
- Sosioloji baxımdan neqativ xarakterizə olunan, bir sıra hüquqa zidd əməllərin məcmusu kimi baxıla bilər.

İstənilən sahədə İnkişafa mane olan əsas faktorlardan hesab olunan korrupsiya müasir dövrümüzdə dünyanı narahat edən problemdir. Korrupsiyanın mövcudluğu, ilk növbədə:

→ ümumbəşəri və milli dəyərləri sarsıdır;

→ hüquqi dövlət quruculuğuna mane olur;

→ iqtisadi və sosial İnkişafı buxovlayır;

→ cəmiyyətin ehtiyatlarından səmərəsiz istifadə edilməsinə şərait yaradır;

→ aztəminatlı insanlara ziyan vurur.

Ona görə korrupsiyaya qarşı mübarizə demokratik və sivil inkişaf yolu seçmiş hər bir dövlətin qarşıya qoyduğu əsas məqsədlərdən hesab olunur.

Korrupsiya ictimai həyatın bütün sahələrinə pozucu təsir edir. Bu neqativ təzahür cəmiyyətin mütərəqqi İnkişafına maneə olmaqla yanaşı, həm də ölkənin milli təhlükəsizliyi üçün ciddi problem hesab edilir.

Korrupsiya iqtisadi sahədə sağlam bazar rəqabəti mexanizminin pozulmasına, inhisarçılığın yaranması və inkişafına, dövlət büdcə vəsaitinin, xüsusən dövlət sifarişlərinin bölünməsi və kreditlərin qeyri-səmərəli paylanılmasına, cəmiyyətin əksəriyyətinin hesabına korrupsiya münasibətlərində olan bir qrup insanın əsassız varlanmasına, korrupsiya elementlərinin hesabına malın və xidmətlərin qiymətinin artmasına, gizli iqtisadiyyatın formalaşması və inkişafı üçün əlverişli şəraitin yaranmasına gətirib çıxarır ki, bu da son nəticədə dövlətin öz iqtisadi funksiyasını tam həcmdə, səmərəli və ədalətli şəkildə həyata keçirməsinə maneçilik törədir.




Korrupsiya ölkənin maddi həyat nemətlərinin kiçik oliqarxik qrupun xeyrinə ədalətsiz şəkildə bölünməsinə, cəmiyyətin böyük hissəsinin yoxsullaşmasına və ölkədə sosial gərginliyin artmasına səbəb olur. Korrupsiya cəmiyyətin ayrı-ayrı strukturlarının həyatını nizamlayan əsas vasitəyə çevrilməklə qanunu, hüququ nüfuzdan salır.

Dünyanın demək olar ki, bütün ölkələrində korrupsiya halları mövcuddur. Ona görə də beynəlxalq səviyyədə korrupsiya ilə mübarizənin gücləndirilməsi məsələlərinə BMT, Avropa Şurası kimi təşkilatlar da xüsusi diqqət yetirir. Bu hadisənin yüksək ictimai təhlükəliliyi nəzərə alınaraq BMT Baş Assambleyasının 34-cü sessiyasında «Hüquq qaydalarının qorunması

üzrə vəzifəli şəxslərin davranış Məcəlləsi» qəbul olunmuşdur. 1996-cı ildə Avropa Şurası tərəfindən korrupsiya ilə mübarizə üzrə fəaliyyət proqramı qəbul edilmişdir. Beynəlxalq səviyyədə qəbul edilmiş sənədlər sırasında 27 yanvar 1999-cu il tarixli Korrupsiyaya görə cinayət məsuliyyəti haqqında Konvensiya və 4 noyabr 1999-cu il tarixli Korrupsiyaya qarşı mülki-hüquqi məsuliyyət haqqında Konvensiya xüsusi əhəmiyyət kəsb edir.

## II. Korrupsiya ümumbəşəri problem kimi

Cəmiyyətdə mövcud olan problemlər içərisində korrupsiya daha geniş yayılmışdır və onunla mübarizə aparılması məsələsi nəinki dövləti, bütövlükdə hər bir vətəndaşı düşündürməlidir. Bu baxımdan hesab edirik ki, korrupsiyaya qarşı mübarizə aparmaq üçün ilk növbədə onun anlayışı, yaranması tarixi, genişlənməsi səbəbləri, onun subyektləri və təzahür formaları, o cümlədən onun nəzəri və praktiki məsələləri geniş şəkildə araşdırılmalıdır. Ona görə ki, korrupsiyanın iqtisadi, sosial və siyasi sahədə vurduğu ziyan olduqca böyükdür. Onun mövcudluğu isə elə bir cəmiyyətə gətirib çıxarır ki, həmin cəmiyyətdə demokratik prinsiplər və bazar İqtisadiyyatı münasibətləri formalaşa bilmir».

Hüquq ədəbiyyatında korrupsiyanın müxtəlif anlayışlarına rast gəlinir. Bir çox izahlı lüğətlərdə ***korrupsiya vəzifəli şəxslərin, siyasi xadimlərin rüşvətlə alınması, satılması*** kimi xarakterizə edilir.

Demokratiya yolunu seçmiş hər bir ölkə bu bəla ilə mübarizə aparır. Ölkəmizdə korrupsiyaya qarşı mübarizə qanunçuluq prinsipləri əsasında həyata keçirilir. Şəffaflığın artırılması, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi korrupsiyaya qarşı mübarizənin əsas prinsipləri kimi təsbit edilib.

Dünya ölkələrində, o cümlədən, Azərbaycanda korrupsiyanın yayılmasının səbəbləri çoxsaylı və müxtəlif amillərlə şərtlənir. Təzahür xarakterinə görə onları aşağıdakı səbəblərə bölmək mümkündür:




Hüquqi səbəblər korrupsiya hallarına görə məsuliyyət nəzərdə tutan qanunvericilik sistemindəki boşluq və çatışmazlıqlar. Onu da qeyd etməliyik ki, artıq Azərbaycan Respublikasının antikorrupsiya qanunvericiliyi daha səmərəli və daha kəsərli olmuşdur. Lakin respublikamızın ictimai həyatının müxtəlif sahələrində həyata keçirilən uğurlu islahatlar qanunvericiliyin təkmilləşdirilməsini tələb edən zəruri şərtlərdən biri kimi hüquqşünas alimlərin qarşısına qanunvericilikdə mövcud olan boşluqlarla əlaqədar problem və ziddiyyətlərin həllini mühüm bir vəzifə kimi qoyur.

***Rüşvətxorluq*** korrupsiyanın ən təhlükəli təzahürüdür, çünki rüşvət alma-vermə bir sıra hallarda digər cinayətlərin törədilməsi ilə müşayiət olunan, çətin açılan latent cinayətdir. Rüşvətxorluq siyasi və İqtisadi quruluşundan asılı olmayaraq dövlətin inzibati idarəçilik sistemində kök salan və onun normal İnkişafına zərbə vuran mənfi hallardan biridir.

Korrupsiya cinayətləri arasında rüşvətlə bağlı cinayətlər xüsusi yer tutur. Çünki rüşvətxopluq korrupsiyanın ən təhlükəli təzahürlərindəndir. Azərbaycan Respublikası CM-nin 311-ci maddəsində rüşvət alma 312-ci maddəsində isə rüşvət vermə cinayətləri nəzərdə tutulmuşdur. Rüşvət alma və rüşvət vermə korrupsiyanın ən geniş yayılmış və təhlükəli təzahür formalarından hesab edilir. Rüşvət alma cinayətinin təhlükəliliyi ondadır ki, o, hakimiyyətin və dövlət idarəçiliyinin əsaslarını sarsıdır, dövlət orqanlarını əhali qarşısında hörmətdən və nüfuzdan salır, vətəndaşların hüquq və mənafelərinin,mühüm sosial prinsiplər olan ədalətliliyin və bərabərliyin pozulmasına səbəb olur. Rüşvət vermənin spesifik xüsusiyyətlərinə gəlincə isə onu qeyd etmək lazımdır ki,bu zaman dövlət qulluqçularının korrupsiyaya qurşanmasına əlverişli zəmin yaradılır,vətəndaşlar arasında qanun çərçivəsindən kənara çıxan davranışa yol verməyə meyl yaranır,insanların qanun və dövlət hakimiyyəti qarşısında bərabərliyi və sosial ədalət prinsipləri ciddi şəkildə pozulur.



Bir qayda olaraq, rüşvət, onu verənin və ya təmsil etdiyi şəxsin xeyrinə konkret hərəkətin (hərəkətsizliyin) edilməsinə görə verilir. Bir sözlə,vəzifəli şəxsin rüşvət verənin mənafeyi üçün etdiyi hərəkət (hərəkətsizlik) həm qanuni, həm də qanunsuz ola bilər. Burada qanunsuz hərəkət (hərəkətsizlik) dedikdə, vəzifəli şəxsin öz qulluq səlahiyyətlərinə aid olmayan və ya xeyrinə iş görülən şəxs barəsində edilə bilməyən,yaxud ümumiyyətlə,qanunvericiliyə zidd olan fəaliyyəti nəzərdə tutulur. Bu cinayət növünün korrupsiyanın ən geniş yayılmış təzahür forması olmasını nəzərə alsaq,onun qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi xüsusiyyəti diqqəti cəlb edir.

Korrupsiya ilə məşğul olan qrupların başçıları aktiv fəaliyyət göstərmək üçün müxtəlif vəzifə adamları ilə münasibətlər qurmaqdan ötəri hər bir imkandan istifadə etməyə çalışırlar. Hər bir vəzifəli şəxs və ya hakimiyyət nümayəndəsi cinayətkar qrupla razılığa gəldiyi təqdirdə qrup tərəfindən onun üçün müəyyən olunmuş konkret funksiyanı yerinə yetirir və tutduğu vəzifədən,göstərdiyi xidmətdən asılı olaraq əvəz alır. Qeyd etmək lazımdır ki,korrupsiyanın mahiyyətində yalnız rüşvətxorluq deyil, həmçinin açıq rəqabəti məhdudlaşdıran inhisarçılıq,möhtəkirlik kimi cəmiyyət həyatının bütün sahələrində problemlərin meydana gəlməsinə səbəb olan əməllər dayanır. Beynəlxalq təcrübənin təhlilinə əsasən söyləmək mümkündür ki, korrupsiyaya qarşı mübarizə yalnız cinayət-hüquqi vasitələrlə deyil,eyni zamanda korrupsiyaya şərait yaradan halların müəyyən edilməsi və aradan qaldırılması məqsədi ilə qabaqlayıcı tədbirlər həyata keçirməklə aparılmalıdır.



Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan hökuməti korrupsiyaya qarşı mübarizə məsələlərinə xüsusi diqqət yetirmiş və bu istiqamətdə müsbət nəticələrə nail olmuşdur. Belə ki,1993-cü ildə xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev hüquq qaydalarını möhkəmlətməklə, məmurların məsuliyyətini yüksəltməklə, ictimai və hüquqi nəzarəti artırmaqla, sosial problemləri həll etmək istiqamətində həyata keçirdiyi tədbirlərlə korrupsiyanı doğuran elementlərin qarşısını almağa başladı. Ulu öndər korrupsiyanı təhlükəli sosial bəla adlandırırdı və ona qarşı ümumxalq mübarizəsi elan etmişdir. Bu mübarizənin səmərəliliyinə nail olmaq üçün zəruri təsisatlar yaradılmış, qanunlar qəbul edilmiş, respublikamız insan hüquq və azadlıqlarının qorunması sahəsində 40-dan çox beynəlxalq konvensiyaya qoşulmuşdur. Bu gün isə həmin mübarizə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin birbaşa rəhbərliyi ilə daha qətiyyətlə aparılır.

Korrupsiyaya qarşı mübarizənin vahid strategiya çərçivəsində qurulması, bu sahədə görülən tədbirlərin səmərəli davam etdirilməsi, zəruri qanunların qəbul edilməsi, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, səmərəli nəzarət mexanizmlərinin yaradılması, hüquq pozuntularının aşkar edilməsi və nəticələrinin aradan qaldırılması, yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsi, ümumən bu sahədə ümumi dövlət siyasətinin həyata keçirilməsinin təmin edilməsi məqsədilə "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər)" uğurla icra olunmuşdur. Eyni zamanda, "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Milli Fəaliyyət Planı korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədilə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün hüquqi zəmin yaratmışdır.

Belə ki, beynəlxalq standartların tələblərinə cavab verən qanunvericilik bazası formalaşdırılıb, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə əlavə və dəyişikliklər edilib, korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşdırılmış qurum - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin strukturu və fəaliyyəti təkmilləşdirilib, beynəlxalq əməkdaşlıq İnkişaf etdirilərək digər dövlətlərin hüquq-mühafizə orqanları və ixtisaslaşdırılmış antikorrupsiya qurumları ilə əməkdaşlıq əlaqələri qurulub, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində bir sıra mühüm addımlar atılıb. Eyni zamanda, iqtisadi və sosial sahədə, o cümlədən əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, əmək haqlarının artırılması və sosial rifahının gücləndirilməsi istiqamətində əsaslı nailiyyətlər əldə edilmişdir.

## III. Korrupsiya hüquqpozmaları

Korrupsiyaya qarşı Azərbaycan Respublikasının Qanununda korrupsiyaya aşağıdakı kimi izah verilir:

Korrupsiya ***- vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır.***

Korrupsiyaya qarşı Qanunvericilik Azərbaycan Respublikasının ərazisində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də daxil olmaqla bütün fiziki və hüquqi şəxslər barəsində, onun ərazisindən kənarda isə Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş hüquqi şəxslər barəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilir.

*Aşağıdakı şəxslər korrupsiya ilə əlaqədar hüquqpozamaların subyektləri hesab edilirlər.*

***Vəzifəli şəxslər:***

- ✓ Dövlət orqanlarına seçilmiş və ya təyin edilmiş şəxslər;
- ✓ Xüsusi səlahiyyət əsasında dövlət orqanlarını təmsil edən şəxslər;
- ✓ İnzibati vəzifə tutan dövlət qulluqçuları;
- ✓ Dövlət orqanlarının müvafiq struktur vahidlərində, dövlət idarə, müəssisə və təşkilatlarında, habelə dövlətin nəzarət səhm zərfinə sahib olduğu təsərrüfat subyektlərində təşkilati-sərancamverici və ya inzibati təsərrüfat funksiyalarını həyata keçirən şəxslər;
- ✓ Dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən olunmuş qaydada qeydə alınmış şəxslər;

✓ Qanunvericiliklə müəyyən edilmiş qaydada yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər;

✓ Yerli özünüidarəetmə orqanlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər;

✓ Qanunla müəyyən edilmiş hallarda dövlət orqanlarının səlahiyyətlərini yerinə yetirən qeyri-dövlət orqanlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər.

***Digər şəxslər:***

1
- Öz nüfuzundan və ya əlaqələrindən istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək müqabilində maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə edən şəxslər;

2
- Vəzifəli şəxsə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif edən və ya vəd edən, yaxud verən fiziki və hüquqi şəxslər və ya belə hərəkətlərdə vasitəçilik etmiş şəxslər.

***Korrupsiyanın qarşısının alınması üçün vəzifəli şəxslərin təqdim etməli olduğu məlumatlar***

- Mənbəyini, növünü və məbləğini göstərməklə illik gəlirlər;
- Vergitutma obyekti olan əmlak;
- Kredit təşkilatlarındakı əmanətlər, qiymətli kağızlar və digər maliyyə vəsaitləri;
- Şirkətlərin, fondların və sair təsərrüfat subyektlərinin fəaliyyətində səhmdar və ya təsisçi kimi iştirak, bu müəssisələrdə mülkiyyət payı;
- Şərti maliyyə vahidinin 5000 misli miqdarından yuxarı olan borcu;
- Şərti maliyyə vahidinin 1000 mislindən yuxarı maliyyə və əmlak xarakterli öhdəliklər.

Yuxarıda göstərilən məlumatlar qanunvericiliklə müəyyən edilmiş qaydada tələb edilə bilər.

Vəzifəli şəxslər tərəfindən nəzərdə tutulmuş məlumatların üzürsüz səbəbdən vaxtında təqdim edilməməsi və ya qəsdən natamam, yaxud təhrif edilmiş məlumatların təqdim olunması həmin şəxslərin intizam məsuliyyətinə cəlb olunmasına səbəb ola bilər.

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya nəzərdə tutulmuş məlumatları üzürsüz səbəbdən vaxtında təqdim etməyən şəxslər barəsində rəsmi dövlət qəzetində məlumat dərc etdirə bilər.

Korrupsiya ilə əlaqədar hüquqpozmalar iki yerə ayrılır:




***Bilavasitə korrupsiya hüquqpozmaları:***

- *vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər tələb etməsi, əldə etməsi və ya belə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin verilməsi ilə bağlı təklifi və ya vədi qəbul etməsi;*
- *xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün fiziki və ya hüquqi şəxs tərəfindən birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunması, vəd edilməsi və ya verilməsi;*
- *vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar əmanətlərdən (depozitlərdən), qiymətli kağızlardan, rentadan, royaltidən və ya icarədən Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olaraq gəlir götürməsi;*
- *müəyyən mükafat müqabilində vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək imkanına malik olduğunu bildirən hər hansı şəxsə birbaşa və ya dolayı yolla maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin təklif olunması, vəd edilməsi və ya verilməsi;*
- *vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar maddi və sair nemətləri, imtiyazları və ya güzəştləri haqqı ödənilmədən və ya bazar qiymətlərindən və ya dövlət tərəfindən tənzimlənən qiymətlərdən aşağı qiymətə (tarifə) əldə edilməsi və s.*

***Korrupsiyaya şərait yaradan hüquqpozmalar:***

- ✓ *xidməti vəzifəsini (səlahiyyətlərini) icra etdiyi dövrdə elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli vəzifə tutmaq və ya fəaliyyət növü ilə məşğul olmaq;*
- ✓ *statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsi məqsədilə fiziki və hüquqi şəxslərə sahibkarlıq fəaliyyətini həyata keçirməkdə, eləcə də subsidiyalar, subvensiyalar, dotasiyalar, kreditlər və digər güzəştlər alınmasında qanunsuz kömək etmək;*
- ✓ *bilavasitə, başqa və ya uydurma şəxslər vasitəsilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, əvəzçilik üzrə işləmək (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla), habelə sahibkarlıq fəaliyyətini həyata keçirən təsərrüfat subyektlərinin və maliyyə-kredit müəssisələrinin icra orqanlarının tərkibinə daxil olmaq;*
- ✓ *statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə onun səlahiyyət dairəsinə daxil olmayan məsələlər üzrə digər dövlət orqanlarının fəaliyyətinə qanunsuz müdaxilə etmək;*
- ✓ *vəzifə tutduğu və ya ona tabe olan, onun nəzarətində olan, habelə ona hesabat verən orqanların işi üzrə fiziki və ya hüquqi şəxslərin nümayəndəsi qismində iştirak etmək;*
- ✓ *qanunla və ya digər normativ hüquqi aktlarla verilməsi nəzərdə tutulmuş məlumatların fiziki və ya hüquqi şəxslərə verilməsindən əsassız imtina etmək, belə məlumatların verilməsini gecikdirmək və yaxud natamam və ya təhrif olunmuş məlumatlar vermək;*
- ✓ *qanunla və ya digər normativ hüquqi aktlarla verilməsi nəzərdə tutulmayan məlumatları və sənədləri fiziki və hüquqi şəxslərdən tələb etmək;*
- ✓ *normativ hüquqi aktların və digər qərarların qəbul edilməsi zamanı fiziki və ya hüquqi şəxslərə onların təyinatına uyğun olmayan üstünlüklər vermək;*
- ✓ *fiziki və ya hüquqi şəxslərə hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsində süni maneələr yaratmaq və s.*

***Yaxın qohumların birgə işləməsinə yol verilməməsi***

✓ Vəzifəli şəxslərin yaxın qohumları, seçkili vəzifələr istisna olmaqla bilavasitə onun tabeliyində olan heç bir vəzifə tuta bilməzlər.

✓ Qanunun bu maddəsinin tələblərini pozan şəxslər həmin tələblərin pozulması müəyyən edildikdən sonra **30** gün müddətində həmin pozuntunu könüllü olaraq aradan qaldırmadıqları halda tabeçiliyi istisna edən başqa vəzifəyə keçirilməli, bu mümkün olmadıqda isə həmin şəxslərdən biri tutduğu vəzifədən azad olunmalıdır.

***Hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər***

Vəzifəli şəxs xidməti vəzifələrin icrası ilə əlaqədar bir il ərzində hər hansı fiziki və ya hüquqi şəxsdən ümumi məbləği **55** manatdan yuxarı olan bir və ya bir neçə hədiyyəni qəbul edə bilməz. Həmin məbləğdən yuxarı olan hədiyyələr şəxsin xidməti vəzifəsini həyata keçirdiyi dövlət orqanına və ya yerli özünüidarəetmə orqanına məxsus hesab edilir.

Vəzifəli şəxs hədiyyənin qəbul edilməsi və ya sadə qonaqpərvərlikdən istifadə ilə bağlı qərara gələ bilmədiyi hallarda, bu məsələ barədə birbaşa rəhbərinin rəyini öyrənməlidir.

Mülki-hüquqi əqadlərin bağlanması və icrası zamanı vəzifəli şəxslərə xidməti fəaliyyəti ilə əlaqədar olaraq hər hansı güzəştlərin və ya imtiyazların əldə edilməsi qadağan olunur.

Vəzifəli şəxsə qanunsuz maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, vəzifəli şəxs onlardan imtina etməlidir. Maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər vəzifəli şəxsə ondan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə birbaşa rəhbərinə məlumat verməli və maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər vəzifəli şəxsin işlədiyi dövlət orqanına akt üzrə təhvil verilməlidir.

***Qanunsuz əldə edilmiş əmlakın götürülməsi və qanunsuz əldə edilmiş imtiyaz və ya güzəştlərin dəyərinin ödənilməsi***

Vəzifəli şəxslər tərəfindən qanunsuz əldə edilmiş əmlak və qanunsuz əldə edilmiş imtiyazlar və ya güzəştlərin dəyəri könüllü olaraq dövlət nəfinə ödənilir. Vəzifəli şəxslər qanunsuz əldə edilmiş əmlakı könüllü olaraq qaytarmaqdan və ya onun dəyərini, habelə qanunsuz əldə edilmiş imtiyaz və ya güzəştlərin dəyərini könüllü olaraq ödəməkdən imtina etdikdə, qanunsuz əldə edilmiş əmlak və ya onun dəyəri, qanunsuz əldə edilmiş güzəşt və ya imtiyazların dəyəri müvafiq dövlət orqanlarının iddiası əsasında məhkəmə tərəfindən dövlətin nəfinə ödənilir.

***Korrupsiyaya qarşı mübarizəni həyata keçirən orqanlar***

Bu mübarizəni aşağıdakı orqanlar öz səlahiyyətləri çərçivəsində həyata keçirirlər:

✓ Bütün dövlət orqanları, vəzifəli şəxslər və hüquq-mühafizə orqanları;

✓ Korrupsiyaya qarşı Mübarizə Fondu;

✓ Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası;

✓ Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi;

✓ Korrupsiya ilə əlaqədar hüquqpozmaların törədilməsi inzibati və ya cinayət məsuliyyəti yaratdıqda, bu mübarizəni qanunvericiliklə müəyyən edilmiş qaydada hüquq mühafizə orqanları həyata keçirirlər.

***<u>Korrupsiya qarşı Mübarizə Fondu</u>*** - 1 fevral 2004-cü ildə təsis edilmişdir. Fondun yaradılmasında əsas məqsədlər aşağıdakılar olmuşdur:



→ insanların mənəvi-hüquqi tərbiyəsinə və cəmiyyətin inkişafına mane olan bu problemin aradan qaldırılması üçün ictimai rəyi oyatmaq

Antikorrupsiya mexanizmlərinin və resurslarının hərəkətə gətirilməsi ilə yanaşı, Korrupsiyaya qarşı Mübarizə Fondunun əsas məqsədi azad şəxsiyyətlə, hüquqi dövlətin layiqli vətəndaşları ilə, onların dəstəyi və səyi ilə korrupsiyanın səviyyəsini azaltmaqdır.

***<u>Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası</u>***

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası "Korrupsiyanın qarşısının alınması" sahəsində ixtisaslaşmış orqan funksiyasını həyata keçirir.

Komissiyanın tərkibi icra, qanunvericilik və məhkəmə hakimiyyəti orqanları tərəfindən təyin edilən 15 üzvdən ibarətdir. Komissiyanın 5 üzvünü prezident, 5 üzvünü Milli Məclis, 5 üzvünü isə Konstitusiya Məhkəməsi təyin edir. Komissiyanın səlahiyyətləri qanunla təsdiq edilən Əsasnamə ilə müəyyən olunur.

***<u>Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi</u>*** Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 mart tarixli 114 nömrəli Sərəncamı ilə yaradılmışdır. *(Hazırda Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsi)* Azərbaycan Respublikası Prezidentinin 11 mart 2011-ci il tarixli Fərmanına əsasən, Azərbaycan Baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin prokurorluq işçilərinin ümumi say tərkibi 60 ştat vahidi artırılaraq 100 nəfərə çatdırılıb, eyni zamanda texniki işçilərin də sayında da əhəmiyyətli dəyişiklik edilib.




18 mart 2011-ci il tarixdə Azərbaycan Milli Məclisi tərəfindən "Əməliyyat axtarış fəaliyyəti haqqında" və "Prokurorluq haqqında" qanunlara dəyişikliklər edilərək Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətləri verilib.

## IV. Korrupsiyaya qarşı mariflendirmə

***"Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"*** *(Azərbaycan Respublikası Prezidentinin 27.04.2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.)*

Müvafiq tədbirlər planı "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın davamı olaraq təsdiq edilmişdir. Tədbirlər planında Vergilər Nazirliyinə aşağıdakı məsələlərin icrası tapşırılmışdır:

| | |
|---|---|
| Dövlət maliyyə nəzarətinin həyata keçirilməsində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarətin təkmilləşdirilməsi | • 2016-2018 ci illər |
| Özəl sektorda şəffaflığın təmin edilməsi və korrupsiyanın qarşısının alınması məqsədi ilə antikorrupsiya, şəffaflıq, etik davranış və hesabatlılıq tələbləri (uyğunluq mexanizmi) üzrə təkliflərin hazırlanması | • 2016-2017 ci illər |
| Özəl sektorda korrupsiyanın qarşısının alınması üzrə maarifləndirici materialların hazırlanması və həmin materialların yayılmasının təşkili | • 2016-2018 ci illər |

Milli fəaliyyət planı ölkəmizdə korrupsiyaya qarşı mübarizə tədbirlərinin daha sistematik, genişmiqyaslı və səmərəli həyata keçirilməsinin təmin edilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiə edilməsinə, əhalinin sosial rifahının yüksəldilməsinə yönəlib. Milli fəaliyyət planının qəbul edilməsinin əsas məqsədi korrupsiyaya qarşı mübarizəni vahid strategiya çərçivəsində qurmaq və bu sahədə görülən tədbirləri daha səmərəli surətdə davam etdirməkdən ibarətdir.

Milli fəaliyyət planında dövlət idarəçiliyində şəffaflığın artırılması, ərizə və şikayətlərə baxılması işinin, qanunvericilik bazasının, institusional mexanizmlərin, korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış qurumların fəaliyyətinin, əmək və sosial təminat sahəsində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, dövlət müəssisələrində korporativ idarəetmə prinsiplərinin tətbiqinin genişləndirilməsi, beynəlxalq əməkdaşlığın, vətəndaş cəmiyyəti institutları ilə əlaqələrin inkişaf etdirilməsi, korrupsiyaya qarşı mübarizə ilə bağlı maarifləndirmə əsas hədəflər kimi müəyyənləşdirilib.

Müvafiq Tədbirlər planında Vergilər Nazirliyinə tapşırılmış tədbirlərin icrası ilə əlaqədar olaraq vergilər nazirinin 4 may 2016-cı il tarixli 1617040100679100 nömrəli əmri ilə ***“Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”***nın həyata keçirilməsi ilə bağlı illik iş planları təsdiq edilmişdir ki, həmin planların da 8-ci başlığı “Korrupsiyanın qarşısının alınması sahəsində tədbirlər və qanunvericiliyin təkmilləşdirilməsi” məsələlərini nəzərdə tutur.

## V. Korrupsiya ilə əlaqədar hüquqpozmalara görə məsuliyyət

***Vəzifəli şəxslərin məsuliyyəti***

Korrupsiya ilə əlaqədar hüquqpozmalar qanunvericiliklə müəyyən edilmiş qaydada intizam, mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyətinə səbəb olur.

Vəzifəli şəxs tərəfindən korrupsiya hüquqpozmaların törədilməsi mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyəti yaratdıqda, vəzifəli şəxsin məsuliyyətə cəlb edilməsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun həyata keçirilir.

Korrupsiya hüquqpozmalarının törədilməsi inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda, aşağıdakı xüsusi hallara riayət edilməklə qanunvericiliklə müəyyən edilmiş qaydada intizam məsuliyyətinə səbəb olur:

1
- dövlət orqanlarına seçilmiş şəxslər korrupsiya hüquqpozmalarını törətdikdə, korrupsiyaya qarşı mübarizə aparan orqan bu barədə vəzifəli şəxsin seçildiyi dövlət orqanlarına məlumat verir

2
- yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər korrupsiya hüquqpozmalarını törətdikdə, korrupsiyaya qarşı mübarizə aparan orqan bu barədə müvafiq seçki komissiyasına məlumat verir. Seçki komissiyası isə bu barədə materiallar ona daxil olduğu gündən beş gün ərzində onun seçildiyi yerli özünüidarəetmə orqanına məlumat verir.

3
- dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən olunmuş qaydada qeydə alınmış şəxslər korrupsiya hüquqpozmalarını törətdikdə, onlar barəsində Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş tədbirlər görülür

4
- Hakimlər korrupsiya hüquqpozmalarını törətdikdə, korrupsiyaya qarşı mübarizə aparan orqan intizam tənbehinin tətbiqi məsələsinə baxılması üçün bu barədə Məhkəmə-Hüquq Şurasına məlumat verir.

***Fiziki və ya hüquqi şəxslərin məsuliyyəti***

Korrupsiya hüquqpozmalarını törətmiş fiziki şəxslərin hərəkətləri cinayət tərkibi yaratmadıqda, onlar inzibati qaydada cərimə edilirlər.

Cinayət tərkibi yaratmayan korrupsiya hüquqpozması törətmiş hüquqi şəxslər qanunla müəyyən edilmiş qaydada cərimə edilir. Cinayət tərkibi yaradan korrupsiya hüquqpozmasına görə hüquqi şəxslər barəsində qanunla müəyyən edilmiş qaydada cərimə və ya digər cinayət-hüquqi tədbirlər tətbiq edilir.

## *5.1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatvermə*

Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat hər bir şəxs tərəfindən yazılı (o cümlədən elektron) və ya şifahi formada verilə bilər. Dövlət və bələdiyyə orqanlarının, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının rəhbəri həmin idarə, müəssisə və ya təşkilatlarda korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların verilməsi üçün müvafiq vəzifəli şəxs və ya struktur bölmə müəyyən edir. İdarə, müəssisə və təşkilatlarda çalışan işçilər korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatları səlahiyyətli struktur bölməyə verə bilərlər. Səlahiyyətli struktur bölmə korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatı qəbul etdikdən sonra qeydə almalı və məlumatın qeydə alınmasını məlumatı verən şəxsə bildirməlidir. Səlahiyyətli struktur bölmə korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat qeydə alındığı gündən 20 iş günü müddətində məlumatı araşdırmalı və araşdırmanın nəticəsini məlumat verən şəxsə bildirməlidir. Araşdırma “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə

müəyyən edilmiş korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərə baxılması xüsusiyyətlərinə uyğun aparılır.

Aşağıdakı şəxslərə korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatın araşdırılması həvalə edilə bilməz:

- Barəsində məlumat verilən şəxsə
- Araşdırmanın nəticəsində birbaşa və ya dolayısı ilə maraqlı olan şəxslərə

Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat səlahiyyətli struktur bölmə ilə əlaqədar olduqda, məlumatı verən şəxs həmin məlumatı müvafiq idarə, müəssisə və ya təşkilatın rəhbərinə təqdim etmək hüququna malikdir. İdarə, müəssisə və ya təşkilatın rəhbəri belə məlumatların qəbul edilməsini, qeydə alınmasını və Qanunda nəzərdə tutulan müvafiq tədbirlərin həyata keçirilməsini təmin etməlidir. Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə məlumat idarə, müəssisə və ya təşkilatın rəhbəri ilə bağlı olduqda, məlumat verən şəxs həmin məlumatı idarə, müəssisə və ya təşkilatın rəhbərindən yuxarı vəzifəli şəxsə və ya korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlara təqdim etmək hüququna malikdir. Həmin orqanlar bu məlumatın qəbul edilməsini, qeydə alınmasını və Qanunda nəzərdə tutulan müvafiq tədbirlərin həyata keçirilməsini təmin etməlidirlər.

### *5.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin dövlət müdafiəsi*

Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs özü barədə məlumatın açıqlanmasını istəmədiyi halda, səlahiyyətli struktur bölmə, idarə, müəssisə və ya təşkilatın rəhbəri və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar onun konfidensiallığını təmin etməlidirlər. Bu məlumat korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin yazılı razılığı olduqda açıqlanır. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin konfidensiallığının pozulmasında təqsiri olan şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsə və ya onun yaxın qohumuna hədə-qorxu gəlmək, onları təzyiqlərə məruz qoymaq, maddi və ya mənəvi ziyan vurmaq, təhqir və təhdid etmək, şərəf və ya ləyaqətini alçaltmaq qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs və ya onun yaxın qohumu barəsində öldürməklə hədənin icra ediləcəyi, zor tətbiq ediləcəyi, əmlakının məhv ediləcəyi və ya ona ziyan vurulacağı qorxusunun mövcudluğu barədə real əsaslar olduğu təqdirdə, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin prokurorluğa müraciəti əsasında “Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada təhlükəsizlik tədbirləri tətbiq edilir.

İdarə, müəssisə və ya təşkilatın korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat vermiş işçisi barəsində məsuliyyət tədbirlərini tətbiq edən idarə, müəssisə və ya təşkilat onların qanunla müəyyən edilmiş hallardan irəli gəlməsini və korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumata aidiyyəti olmadığını əsaslandırmalıdır. Həmin işçi attestasiyadan keçirildikdə, səlahiyyətli struktur bölmənin nümayəndəsi attestasiya komissiyasının iclasında iştirak etməlidir.

İdarə, müəssisə və ya təşkilatlar, səlahiyyətli struktur bölmə və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar tərəfindən korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatvermə və məlumat verən şəxsin dövlət müdafiəsi ilə bağlı

qanunvericiliyin tələbləri pozulduqda, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs inzibati qaydada və (və ya) məhkəməyə şikayət verə bilər.

## VI. Nəzarət sualları

1. Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının qanunu Azərbaycan Respublikasının ərazisində hansı şəxslər barəsində tətbiq edilir?
2. Vəzifəli şəxslərin yaxın qohumları bilavasitə onun tabeliyində olan hər hansı bir vəzifə tuta bilərmi?
3. Vəzifəli şəxs hədiyyənin qəbul edilməsi və ya sadə qonaqpərvərlikdən istifadə ilə bağlı qərara gələ bilmədiyi hallarda nə etməlidir?
4. Vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi müqabilində üçüncü şəxslər üçün dolayı yolla maddi nemətlər tələb etməsi bilavasitə korrupsiya hüquqpozması hesab edilirmi?
5. Vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar maddi nemətləri haqqı ödənilmədən və ya bazar qiymətlərindən və ya dövlət tərəfindən tənzimlənən qiymətlərdən aşağı qiymətə (tarifə) əldə edilməsi bilavasitə korrupsiya hüquqpozması hesab edilirmi?
6. Vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar icarədən Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olaraq gəlir götürməsi bilavasitə korrupsiya hüquqpozmasına və korrupsiyaya şərait yaradan hüquqpozmasına aiddir?
7. Müəyyən mükafat müqabilində vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək imkanına malik olduğunu bildirən hər hansı şəxsə birbaşa imtiyazların və ya güzəştlərin verilməsi bilavasitə korrupsiya hüquqpozması hesab edilirmi?
8. Vəzifəli şəxsin xidməti vəzifəsini (səlahiyyətlərini) icra etdiyi dövrdə elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli vəzifə tutması və ya fəaliyyət növü ilə məşğul olması korrupsiyaya şərait yaradan hüquqpozmalar sayılırmı?
9. Vəzifəli şəxsin statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə, şəxsi maraqlarına aid məsələlərin həllinə təsir etməsi hüquq pozuntusu sayılırmı?
10. Korrupsiya ilə əlaqədar hüquqpozmalar qanunvericiliklə müəyyən edilmiş qaydada intizam məsuliyyətinə səbəb ola bilərmi?

11. Qanunvericiliklə müəyyən edilmiş korrupsiya hüquqpozmalarını törətmiş fiziki şəxslərin hərəkətləri cinayət tərkibi yaratmadıqda hansı məsuliyyət tədbiri tətbiq edilir?
12. Cinayət tərkibi yaratmayan korrupsiya hüquqpozması törətmiş hüquqi şəxslər barəsində hansı tədbir görülür?

## VII. Müstəqil öyrənmə üçün tapşırıqlar

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 33-cü Fəsli;
**2.** "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu;
3. Cinayətkarliğa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
4. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi;
5. «Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydaları»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu.

## VIII. Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi
4. ”Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu
5.“Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu
6. ”Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu
7.“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu
8. Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya haqqında Əsasnamə
9. “Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”
10. Azərbaycan Respublikası Prezidentinin “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında 5 sentyabr 2012-ci il tarixli 2421 nömrəli Sərəncamı
11. “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı.